*Hadiyeva Sonaxanım.Müasirləri Əbdürrəhimbəy Haqverdiyev haqqında // Elmi əsərlər,2020,1(10),yanvar-iyun,s.48-54.*

UOT 821.512.162

**Hadiyeva Sonaxanım,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*
e-mail:sonaxeyal@mail.ru

# MÜASİRLƏRİ ƏBDÜRRƏHİMBƏY HAQVERDİYEV HAQQINDA

(*Əbdürrəhimbəy Haqverdiyev – 150* )

**Açar sözlər:** *Haqverdiyev, pyes, məqalə, hekayə, tədqiqat*

Nasir, dramaturq, ədəbiyyatşünas, ictimai xadim, pedaqoq, Əməkdar incəsənət xadimi Əbdürrəhimbəy Haqverdiyevin (1870-1933) Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətləri olmuşdur. Şuşa yaxınlığında yerləşən Ağbulaq kəndində dünyaya göz açan, uşaq vaxtı atasını itirib, əmisinin himayəsinə sığınan, əmisi arvadının bir çox əziyyətlərinə məruz qalan, ailədəki vəziyyətdən baş götürüb anasına pənah aparan balaca Əbdürrəhimin sonrakı həyatı uğurlu olmuşdur. Atalığı onun ziyalı kimi yetişməsi üçün səy göstərmiş, Əbdürrəhim Şuşada Yusif bəyin yay məktəbində, Şuşa realnı məktəbində, Tiflis realnı məktəbində, Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır. Haqverdiyevin həyat fəaliyyəti haqqında bir çox müasirlərinin yazılarında müxtəlif epizodlar vardır. Hidayət Əfəndiyev "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş Ə.Haqverdiyev yolu" adlı məqaləsində yazır: "Ə.Haqverdiyev 1870-ci ildə, mayın 17-də Şuşa şəhərində doğulmuşdur. Hələ 3 yaşında ikən, atasını itirərək əmisinin himayəsi altına keçmiş Haqverdiyev ibtidai tərbiyə və təhsilini də Şuşada almışdır. Haqverdiyev üzərində hələ çocuqluqdan onun müəllimi, teatro və səhnə işi ilə artıq dərəcədə maraqlanan Yusif bəy Məliknəzərovun dərin təsiri olmuşdur. Mərhumun özünün etirafına görə onu ilk dəfə teatro işinə təşviq edən və dramaturgiya ilə maraqlandıran həmən bu şəxs olmuşdur. 1890-cı ildə Şuşa şəhərini tərk edərək Tiflisə və oradan da təhsilini davam etdirmək üçün Peterburqa gedən Haqverdiyev üzərində Tiflis və Peterburq həyatının həlledici əhəmiyyəti olmuşdur. Ə.Haqverdiyev ilk dəfə olaraq mədəni və zəngin teatro həyatı ilə Peterburqda qarşılaşmışdır. Bu həyat onun zəkasını açaraq ona istiqamət vermişdir. Peterburq teatrolarından aldığı təsirat nəticəsində Haqverdiyev 1892-ci ildə özünün ilk dramatik əsəri olan "Yeyərsən qaz ətini, görərsən ləzzətini" komediyasını yazır. Haqverdiyevin məşhur talantlı əsəri olan "Dağılan tifaq" da müəllif tərəfindən Peterburqda ikən yazılmışdır".

Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan ədiblərimizdəndir. Onun istər Azərbaycan dramaturgiyası üçün, istərsə də nəsrimiz üçün gördüyü misilsiz işlər təqdirəlayiqdir və müasirləri Haqverdiyev yaradıcılığından bəhs edən ədəbi-tənqidi məqalələrində onun yaradıcılıq xüsusiyyətlərini yüksək dəyərləndirmişlər. Əli Nəzmi "Ədəbiyyat qəzeti"ndəki "Həssas yazıçı və səmimi insan" adlı məqaləsində yazır: "Əbdürrəhimbəy əhatəli, həssas bir yazıçı idi. O, xalqımızın dərdlərini, ağrılarını çox yaxşı hiss edir, onları görür, tapır və əlacını düzgün olaraq göstərirdi. Cəhalət, nadanlıq, mövhumat, qətl, qarət, bir-birini gözü götürməmək kimi insanlığa yaraşmaz xasiyyətlərin, hərəkətlərin kütlə, xalq arasından süpürülüb götürülməsi uğrunda var qüvvəsi ilə çalışırdı. Böyük mədəniyyətə malik, çalışqan, yorulmaz, sağlam məfkurəli gözəl düşüncəli bu yazçıçını, xalqımızın ən yaxın dostu olan bu səmimi insanı biz heç bir zaman unutmayacağıq.

Bizdən ona əbədi hörmət".

Ə.Haqverdiyev ədəbiyyata bir dramaturq kimi gəldiyi üçün müasirləri onun dramaturgiyası haqqında daha çox söz demişlər. Abbas Zamanov "Kommunist" qəzetindəki "Ölməz sənətkar"

adlı məqaləsində yazır: “Ə.Haqverdiyev yaradıcılıq diapazonu son dərəcə geniş, həyatı qavrama istedadı son dərəcə vüsətli, obrazlar aləmi rəngarəng olan mahir söz ustası, həssas insan sərrafıdır. O öz yaradıcılığı ilə milli dramaturgiyamızı istər mövzu və məfkurə, istərsə də janr və üslub etibarı ilə zənginləşdirən pyeslər müəllifidir. Onun hər bir yeni əsəri dramaturgiyamızın tarixində yeni bir hadisə kimi qarşılanmış, teatrımızın tarixində təzə səhifə açmışdır”.

Təhsilini bitirib Şuşaya qayıdan Əbdürrəhimbəy Haqverdiyev burada ilk hekayələrini yazmışdır. Daha sonra Cəlil Məmmədquluzadənin təklifi ilə “Molla Nəsrəddin” məcmuəsi üçün hekayələr və felyetonlar yazmış və müxtəlif imzalarla dərc olunmuşdur. Cəfər Xəndan yazıçının vəfatının 15 illiyi münasibətilə qələmə aldığı “Kommunist” qəzetindəki “Əbdürrəhimbəy Haqverdiyev” adlı məqalədsində yazır: “Haqverdiyev yaradıcılığında hekayə janrının inkişaf etməsində “Molla Nəsrəddin” jurnalının böyük təsiri olmuşdur. 1905-ci il inqilabından sonra proqressiv cərəyana qoşulan Haqverdiyev “Molla Nəsrəddin”in fəal yazıçıları sırasına daxil idi. O, jurnalda yaxından iştirak edib hekayələrini burada çap etdirirdi. Onun hekayələri içərisində feodal-patriarxal həyat, din, mövhumat əleyhinə mövzular daha mühüm yer tutur.

Haqverdiyevin uşaqlar üçün yazılmış çox sadə və xırda hekayələri də vardır. Onun hekayələrində kompozision quruluş çox maraqlıdır. Burada hadisələr bəsitdən mürəkkəbə tədrici inkişaf yolu ilə verilir”.

Haqverdiyevin ədəbi-tənqidi məqalələri, eləcə də Azərbaycan incəsənəti və teatr mədəniyyəti ilə bağlı məqalələri də təqdirəlayiqdir. Əziz Mirəhmədov “Kommunist” qəzetindəki “Yazıçı-alim” adlı məqaləsində yazır: “Dərin elmi hazırlığa malik olan ədib incəsənəıt və ədəbiyyata aid bir sıra orijinal tədqiqat əsərləri yazmışdır. Haqverdiyevin diqqətimi cəlb edən hər şeydən əvvəl, Şərq incəsənəti tarixi idi. Ona görə də ədibin elmi əsərləri içərisində əsas yeri onun Şərq teatrı tarixinə dair yazıları tutur. “Teatr və dramaturgiya” məcmuəsinin 1935-ci il, 6-cı nömrəsində çap olunmuş “Azərbaycan türk teatrı” adlı əsərində Haqverdiyev, teatrımızın ən qədim dövrlərdən birinin tarixini nəzərdən keçirir, ümumiyyətlə, yunan və Avropa teatrının, xüsusilə Şərq teatrının mənşəi və tarixi inkişafından danışır. Şərq teatrının Şərqdəki xalq oyunları və mərasimlərlə sıxı əlaqədar olduğunu göstərir və şəbihlərin dramaturji xüsusiyyətlərini dərindən təhlil edir. Əsərin ikinci hissəsində müəllif M.F.Axundovla başlayan dramaturgiyamızın inkişafından və Azərbaycanda təşkil olunmuş teatrlardan bəhs edir.

Ümumiyyətlə, Haqverdiyevdən yadigar qalan əl yazmaları içərisində Azərbaycan teatrının tarixinə aid çoxlu qeydlərə, dəftərlərə təsadüf edirik. Bu qeydlərdən anlaşılır ki, ədib teatrımızın mükəmməl tarixini yazmaq niyyətində imiş...

Haqverdiyev bədii tərcümə ilə ciddi məşğul olmuş, rus və Qərbi Avropa ədəbiyyatından dəyərli tərcümələr etmiş, öz əsərləri də bir çox xarici ölkələrdə nəşr olunmuşdur. Əli Vəliyev“ Ədəbiyyat və incəsənət” qəzetindəki “Unudulmaz görüşlər” adlı məqaləsində yazır: “Yüz illiyini böyük fərəhlə qeyd etdiyimiz Əbdürrəhimbəy Haqverdiyev çox cəhətli yaradıcılıq, geniş mədəniyyət, dərin bilik yiyəsi idi. O hansı sahədə çalışırdısa yaradırdı, müvəffəq olurdu, nailiyyət qazanırdı. Səbəbi bu idi ki, həm yüksək istedad, həm də dərin mədəniyyət sahibi idi. Onun ədəbi irsi içəriində rus, erməni, Qərbi Avropa ədəbiyyatından etdiyi bir sıra qiymətli tərcümələr dediklərimizə inandırıcı subut ola bilər.

M.Qorkinin “İzergil qarı” və qeyri hekayələrini, A. Çexovun “Dəhşətli gecə”də toplanmış novellalarını, Şekspirin “Hamlet”, Şillerin”Qaçaqlar”, Volterin ”Soltan Osman”, E.Zolyanın “Qazmaçılar”, Andersenin ”Bülbül”, “Şahın təzə libası”, Sundukyanın “Pepe”, Korolenkonun “Qoca zəng çalan” əsərlərini Azərbaycan dilinə Əbdürrəhimbəy Haqverdiyev tərcümə etmişdir.

Otuz yeddi il əvvəl həyata əbədilik göz yuman böyük yazıçı və insan, fədəkar fədadi, kamil ustad çox qiymətli və əlvan ədəbi irs qoyub getmişdir”.

Ə.Haqverdiyevin sağlığında Bakıda 1923, 1925-ci illərdə “Padşahın məhəbbəti”, 1926-cı ildə “Şeyx Şəban”, “Ağa Məhəmməd çşah Qacar”, “Ağac kölgəsində”, “Bəxtsiz cavan”, “Vaveyla”,

"Dağılan tifaq", 1927-ci ildə "Köhnə dudman", "Marallarım", "Ac həriflər", "Mirzə Fətəli Axundov", 1928-ci ildə "Qadınlar bayramı", "1930-cu ildə "Xortdanın cəhənnəm məktubları" adlı kitabları çap olunmuşdur. Tənqidçilər Ə.Haqverdiyevin nasir kimi yaradıcılığını yüksək dəyərləndirmişlər. Haqqında yazılmış tədqiqat işlərində, ədəbi-tənqidi məqalələrdə Haqverdiyevin hekayənəvisliyi yüksək qiymətini almışdır.Əb. Sadiq "Ədəbiyyat qəzeti"indəki "Əbdürrəhim bəyin yeni tapılmış hekayələri haqqında" məqaləsində yazır: "Biz Haqverdiyevin bu hekayələrində də ondakı sənətkarlıq qələminin böyük gücünü görürük. Bu hekayələr onun bütün yaradıcılığı ilə orqanik surətdə bağlı olan əsərlərdir. XX əsrin başlanğıcından bəri ədəbiyyatımızda görkəmli yer tutan, qırx illik səmərəli ədəbi fəaliyyəti ilə özünü xalqa sevdirən Əbdürrəhimbəy Haqverdiyev dövrünün qabaqcıl ideallarını ifadə edən bir yazıçı olmuşdur. O, öz əsərlərində yorulmadan Azərbaycandakı keçmiş həyatın çürüklüklərini, bəy-xanların soyğunçuluğunu, ruhanilərin, tacirlərin fırıldağını, mövhumatı, elmsizlik və avamlığı kəskin tənqid və ifşa etmişdir".

Ə.Hidayət isə "Ədəbiyyat qəzeti"ndəki "Ə.Haqverdiyevin nəsri haqqında qeydlər" adlı məqaləsində yazır: "Haqverdiyev realist yazıçı olaraq həmişə öz yaradıcılıq ilhamını həyatdan almışdır. Onun hekayələrinin hər biri oxucuların gözü qarşısında real həyatın canlı bir parçasını təcəssüm etdirir. Bu hekayələri oxuyarkən bədii təsvirin sehirli qüvvəti adamı, heç özü də hiss etmədən, hadisə yerinə aparır, həmin hadisənin fəal iştirakçısı edir. Buna görə də oxucu Haqverdiyevin hekayələrində təsvir edilən hadisələrə laqeyd və biganə qala bilmir, hadisə onu dərhal qavrayır. Onda canlı fikir tərmiləri yaradır. Onun xəyalına və şurunun dərinliklərinə nüfuz edərək, orada möhkəm həkk olunur. Oradan heç bir zaman silinməyir. Oxucunu hər zaman eyni dərəcədə təsirləndirir və düşündürür".

Mir Cəlal Paşayev də "Kommunist" qəzetindəki "Unudulmaz ədib" adlı məqaləsində yazıçının yaradıcılıq xüsusiyyətlərini səciyyələndirərək yazır: "Haqverdiyevin hekayəyə gətirdiyi ən mühüm şey həyatdır! Ədəbi sənətin bu şəklini Haqverdiyev həqiqi həyatımızı, məişətimizi təsvir etmək üçün xalqımızın, vətənimizin dərd və ehtiyaclarını açıb göstərmək üçün, özünü düşündürən ümumi-ictimai məsələləri vətəndaşlarına danışmaq üçün yaxşı bir vasitə seçmişdir. Ədibin başlıca mövzusu köhnə həyat və münasibətdir. Öz vətəni olan Qarabağda və sonralar ölkədə və bütün islam Şərqində müşahidə etdiyi cəhalət, fanatizm, istismar və haqsızlıqları satiraya tutan, şirin və təbii bir gülüş ilə bizə söyləyən ədib əlvan bir tiplər silsiləsi yaratmışdır. O, bu adamları "Maral" adlandırır...

Haqverdiyevin nəsr dili bütün realist nasirlərimiz üçün nümunədir. Bu dildə sünilik, ibarəçilik, zahiri bəzək, əcnəbi təsir yoxdur. Canlı danışıq dilimiz onun gözəl xüsusiyyətlərini, onun zəngin ehtiyatını, məsələlərini, həkimanə sözlərini bu qədər cəsarətlə yazıya, bədii ədəbiyyata yeridən iki ədibimiz varsa, biri Haqverdiyevdir. Ona görə də dili əlvan, söyləmə üsulu şirin, ifadəsi sadə, ədası xoşdur".

Mircəlal Paşayev "Bakı" qəzetindəki "Böyük ədib" adlı ikinci bir məqaləsində yazır: "Haqverdiyevin sayıq realizmi klassik tənqidi realizmdir. Haqverdiyevin əsərlərində yaranmış tiplər silsiləsi köhnə dünyada yaşayan, o dövrün haqsızlıq və məhrumiyyətlərini görən, bu zülm və zorakılığa davam gətirməli olan məzlum və sıravi adamlardır. Ədib bu canlı, köməksiz insan xarakterlərini "obyektiv", "bitərəf", bigüman müşahidəçi kimi qələmə almır. Onları tənqid edərək, qırmanclayaraq ictimai dəhşətlərin səbəblərini aramağa, bunlara qarşı oxucuda etiraz, nifrət oyatmağa çalışır.

Sadə, sıravi adamlar – həyatın dibində, bir tikə çörək, güzəran üçün zillət, məşəqqət çəkən adamlar ədibin təsvir hədəfi olmuş və onların acınacaqlı halı oxucunu həm güldürmüş, həm də kədərləndirmişdir".

Hidayət Əfəndiyev "İnqilab və mədəniyyət" jurnalındakı "Ə.Haqverdiyevin xatirəsi" adlı məqaləsində yazır: "Azərbaycan ədəbiyyatına olduqca qiymətli və yüksək bədii dəyərə malik

sənət əsərləri vermiş Haqverdiyev, bədii nəsrimizin inkişafında yeni bir səhifə açmışdır. Haqverdiyevin nəsrində M.F.Axundov, C.Məmmədquluzadə nəsrinin nəcib ənənələrini yeni məzmunda zənginləşdiyini, yüksək mərhələyə qaldırdığını görürük".

Ə.Haqverdiyevin bir ictimai xadim kimi Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuşdur. İstər Tiflisdə, istər Peterburqda, istər Şuşada, istərsə də Bakıda onun ictimai fəaliyyəti olmuş, belə ki, bir çox yerlərdə teatr truppaları yaratmış, konsertlər təşkil etmişdir. "Leyli və Məcnun" operası ilk dəfə tamaşaya qoyulanda ilk Azərbaycan rejissoru kimi orkestri, xoru və tamaşanı idarə etmişdir.

Əlifağa Bağırov "Ədəbiyyat və incəsənət" qəzetindəki "Ə.Haqverdiyev və teatr" adlı məqaləsində yazır: "Bakıda Haqverdiyev həvəskar artistləri başına toplayır, onların qüvvəsi ilə tez-tez tamaşalar verir. Onun tamaşaya qoyduğu "Vəziri-xani-Sərab", "Hacı Qara" (M.F.Axundov), "Müsibəti-Fəxrəddin", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük" (N.B.Vəzirov), "Dilin bəlası" (N.Nərimanov), "Yaxşılığa yamanlıq" (İ.Məlikov), "Xəsis" (Molyer), "Dağılan tifaq", "Pəri cadu" pyesləri ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Azərbaycan mətbuatı Haqverdiyevin rejissorluq məharətini, səhnəmizin inkişafı yolundakı səmərəli əməyini təqdir edir...

Haqverdiyev Azərbaycan xalq ifaçılarını kütləvi səhnəyə çıxaran ilk mədəniyyət xadimidir. O, kütlə kütlə içərisindən çıxmış istedadların fəaliyyətinə böyük əhəmiyyət verirdi. Haqverdiyev 1901-ci ildə Şuşada, 1902-ci ildə Bakıda xalq ifaçılarının iştirakı ilə böyük konsertlər verir. Konsertlərdə C.Qaryağdı "Mahur", Ələsgər "Çargah", bakılı Seyid "Bayatı-İsfahan" muğamlarını, aşıq Nəcəfqulu və aşıq Abbasqulu öz nəğmələrini, uşaqlardan və böyüklərdən ibarət xor dəstələri el mahnılarını ifa edirdilər. Haqverdiyev Azərbaycan musiqi tarixində ilk dəfə olaraq xalq çalğı alətlərindən ibarət orkestr təşkil edir. 12 nəfərlik orkestr konsertdə "Arazbari"ni ifa edir, konsert yazıçının tərtibatı ilə hazırlanmış "Azərbaycan toyu" ilə bitirdi. Şuşada və Bakıda verilən bu konsertləri təkcə azərbaycanlılar deyil, rus, yəhudi, erməni dinləyiciləri də rəğbətlə qarşılayırdı. 1903-cü ildə Bakıda verilən konsert haqqında bir rus jurnalisti yazmışdı: "Əgər mən antreprsiyor olsaydım, bir dəqiqə belə fikirləşmədən dünənki ifaçıları Peterburqa aparardım. Onlar orada müvəffəqiyyət qazanardılar. Onları dinləməyə gələr, dinlər və ağlardılar".

Azərbaycan SSR xalq artisti Hacıağa Abbasov "Ədəbiyyat və incəsənət" qəzetindəki "Biz hamımız onu sevirdik" adlı məqaləsində yazır: "O, 1920-ci ildə xalq maarif komissarlığında incəsənət şöbəsi müdiri olduğu zaman yeni teatr ocaqları açmağa, aktyorların maddi həyatının yaxşılaşmasına böyük qayğı göstərirdi. Bakıda 1921-ci ildə "Tənqid-təbliğ" teatrı yaratmaq işini Haqverdiyev mənə tapşırdı. Teatrın təşkilindən sonra o özü də böyük həvəslə kollektivimiz üçün "Padşahın məhəbbəti", "Altun öküz", "Baba yurdu" və s. əsərlər yazdı. Nəriman Nərimanovun təklifi ilə Xalq Komissarları Şurası tərəfindən Haqverdiyevə "Tənqid-təbliğ" teatrı ilə ciddi məşğul olmaq tapşırılmışdı. O, birinci dəfə olaraq, 1922-ci ildə dram teatrının tarixini yazdı. "Tənqid-təbliğ" teatrının repertuarının zənginləşməsi və teatrın ideya-yaradıcılıq cəhətdən möhkəmlənməsində Haqverdiyevin böyük rolu olmuşdur".

Respublikanın xalq artisti Sona Hacıyeva da "Ədəbiyyat və incəsənət" qəzetindəki "Onun məsləhəti ilə" adlı xatirəsində yazır: "Yadımdadır, Əbdürrəhimbəy məşqlərimizə baxardı. Sıraların birində sakitcə əyləşər və məşq zamanı aktyora heç vaxt göstəriş verməzdi. Bir qeydi olanda da rejissorla məsləhətləşərdi. O, sakit, təmkinli, mehriban adam idi. Biz aktyorlarla dost səmimiliyi ilə görüşər, söhbət edərdi. Gülümsər üzünə baxanda demək olmazdı ki, bu xoşsifət adam faciə əsərləri də yazır. Daxilən, ruhən nikbin, həyatsevər adam idi. Mənim xatirimdə də həmişəlik belə qalıb".

Azərbaycan SSR xalq artisyi, bəstəkar Əfrasiyab Bədəlbəyli "Bakı" qəzetindəki "Üç görüş" adlı xatirəsində yazır: "Atam Haqverdiyevi mən hələ dünyaya gəlməmişdən tanıyırdı. Axı, o, həvəskar müğənni, teatr vurğunu idi. Hərdənbir səhnədə Məcnun rolunda da çıxış edirdi.

Tezliklə mənim həyatımda mühüm hadisə baş verdi. Mən Şövkət Məmmədovanın açdığı teatr məktəbinin dinləyicisi oldum. Əbdürrəhimbəy bizə diksiyadan dərs deyirdi. Hərçənd onun özünün diksiyası aydın deyildi. Lakin o, şeirləri qeyri-adi oxuyardı. Çünki Azərbaycan şeirinin ritm ölçüsünü çox gözəl bilirdi. O, şeir oxuyanda biz nəfəsimizi çəkmədən dinləyərdik. Onun dərsini həmişə səbirsizliklə gözləyirdik".

Həmid Araslı "Ədəbiyyat qəzeti"ndəki "O ürəkdən sevinərdi" adlı məqaləsini belə yekunlaşdırır: "O, Fərhadın dili ilə söylədiyi arzularının, təsəvvür etdiyindən yüksək tərzdə həyata keçirildiyinin şahidi oldu. Əl-qolunu çırmayıb ürəklə işə başladı. Artıq onun üçün geniş fəaliyyət meydanı açılmışdı. İncəsənət, məktəb, elm ocaqlarının yaranmasında həvəslə çalışdı. Hər gün yeni bir qələbə, hər gün yeni bir mədəni müəssisənin açılışında iştirak etdi.

Bütün gəncliyini xalqın səadətinə, mədəniyyətin inkişafına sərf etmiş olan görkəmli ədib saçlarına dən düşdüyü bir zamanda ölkəsinin xoşbəxt günlərini gördü".

Ə.Haqverdiyev Azərbaycan Dövlət Darülfününunda müəllim kimi fəaliyyət göstərmiş, bir çox alimlərin, tənqidçilərin yetişməsində böyük rol oynamışdır. Prof. Ağaməmməd Abdullayev "Azərbaycan gəncləri" qəzetindəki "Gözəl müəllim, nəcib insan" adlı məqaləsində yazır: "Böyük ədib və dramaturqumuz Əbdürrəhimbəy Haqverdiyev hərtərəfli inkişaf etmiş bir şəxsiyyət idi. O, görkəmli yazıçı olmaqla bərabər, həm də incəsənəti ürəkdən sevən, yüksək təhsilli ustad bir müəllim və sözün əsl mənasında, gözəl bir pedaqoq idi.

Mən Əbdürrəhimbəy Haqverdiyev ilə 1927-ci ildən tanışam. O zaman mən Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin dil-ədəbiyyat şöbəsində təhsil alırdım. Ə.Haqverdiyev bizə Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyatşünaslıq kursu üzrə mühazirələr oxuyurdu.

Yadımdadır onun qalın və qara cildli ümumi dəftəri vardı. Bu, Əbdürrəhimbəyin öz əlilə yazıb hazırladığı Azərbaycan ədəbiyyatı tarixi kursu və ədəbiyyatşünaslıq məsələlərinə dair konspekti idi. Bundan başqa onun qarşısında oxuyacağı mühazirə üçün bir səhifəlik planı olardı.

Əbdürrəhimbəy mühazirə oxuyarkən qətiyyən konspektə baxmazdı, yalnız arabir nitqində ardıcıllıq gözləmək üçün qarşısındakı plana ötəri nəzər salardı".

Ə.Haqverdiyev "Azərbaycanı öyrənmə və tətəbbö cəmiyyəti"nin sədr müavini, sonra sədri olmuş, Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna üzv seçilmişdir. Şərq fakültəsinin katibi, Azərbaycan Şura Yazıçılar İttifaqının yaradıcılarından biri, məsul katibi və bir çox qurumların üzvü olmuşdur. Ə.Haqverdiyev 1933-cü ildə dünyasını dəyişmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Yazıçının vəfatından sonra əsərləri təkrar çap olunmuşdur.Əli Nazimvə Hacıbaba Nəzərlinin"Kommunist" qəzetində çap olunmuş "Əbdürrəhim Haqverdiyev" adlı məqalələri belə başlayır: "Bu gün biz qocaman şura yazıçısı Ə.Haqverdiyevə son vətəndaşlıq və yazıçılıq borcumuzu veririk. Lakin Haqverdiyevin dəfni ilə biz onun yarım əsrə qədər sürən ədəbi-ictimai fəaliyyətinə yekun vurmaqla içərimizdən böyük bir ədibin, dramaturqun və ictimai mədəni fəaliyyət adamınıngetdiyini qeyd edirik.

Ə.Haqverdiyev, şura ədəbiyyatına, inqlabdan əvvəl keçirdiyi böyük bir inkişafla gəlmişdi. O, inqlaba yaxınlaşdığı zaman, artıq yetgin bir yazıçı və böyük dövrün xüsusiyyətlərini özündə əks etdirən bir ədib idi".

Mircəlal Paşayev isə "Ədəbiyyat qəzeti"də yazıçının vəfatının 10 illiyi münasibətilə dərc etdirdiyi "Haqverdiyev yaradıcılığı" adlı məqaləsində yazır: "40 illik ədəbi fəaliyyət keçirən, dramaturgiyamız və nəsrimizdə çox görkəmli bir mövqe tutan Haqverdiyevi qüdrətli bir sənətkar, mahir bir hekayə ustası, yorulmaz bir sənət xadimi kimi bütün xalqımız tanıyır və sevir. Sovet hökuməti bu qocaman ədibin əməyinə həmişə yüksək qiymət vermişdir. Əsərləri dönədönə nəşr olunmuş, rusca tərcümə olunmuş, səhnəmizdə təkrar-təkrar qoyulmuşdur. Haqverdiyevə respublikanın incəsənət xadimi adı verilmişdir. On ildir ki, ədib aramızda yoxdur, onun qələmi işləmir. Lakin bütün xalqımız onun xatirəsini əziz saxlayır, onu qiymətli əsərləri ilə həmişə yad edir. Azərbaycan yazıçıları qocaman ədibin irsini öyrənmək və yaymaq, onun bütün gözəl sənətkarlıq xüsusiyyətlərini davam və inkişaf etdirmək uğrunda yorulmadan çalışırlar".

Ə.Haqverdiyevin əsərləri müxtəlif dillərə tərcümə edilmişdir. B.Əfəndiyev "Bakı" qəzetindəki "Müxtəlif dillərdə" adlı məqaləsində yazır: "Haqverdiyevin əsərləri rus oxucularına da yaxşı tanışdır. 50-ci illərdə Moskvanın Dövlət Ədəbiyyat Nəşriyyatı Ə.Haqverdiyevin bircildlik seçilmiş əsərlərini və hekayələr məcmuəsini çapdan buraxmışdır. 1960-cı ildə isə "Xortdanın cəhənnəm məktubları" hekayələr kitabını həmin nəşriyyat çap etmişdir.

1934-cü ildə Tbilisidə çap olunmuş "Azərbaycan yazıçıları" almanaxında Ə.Haqverdiyevin "Şeyx Şə'ban" hekayəsi, yenə də Tbilisidə 1957-ci ildə çapdan çıxmış "Azərbaycan hekayələri" kitabında onun bir neçə hekayəsi verilmişdir. 1952-ci ildə Vilnüsdə eyni adla buraxılmış məcmuədə oxucular Haqverdiyevin iki hekayəsi ilə tanış olmuşlar. Qırğız oxucuları isə Ə.Haqverdiyevin əsərlərini öz dillərində ilk dəfə 1985-ci ildə oxumuşlar.

Ədibin əsərləri ölkəmizdən kənarda da çap edilmişdir. Bolqarıstanın "Narodna prosveti" nəşriyyatı türk dilində onun əsərləri ilə öz oxucularını tanış etmişlər.

Leyspiqdə alman dilində buraxılmış "Leksikon"da və "SSRİ xalqları ədəbiyyatı" məcmuəsində isə Haqverdiyevin tərcümeyi-halı haqqında məlumat verilmişdir".

Ə.Haqverdiyev müasirlərinin xatirələrində həm də bir insan kimi dərin iz buraxmışdır. Əziz Şərifin "Azərbaycan" jurnalında çap olunmuş "Keçən günlərdən" adlı geniş yazısında yazıçının həyatı, yaradıcılığı, ictimai xadim kimi hərtərəfli fəaliyyəti diqqətə çatdırılmışdır. Müəllif yazır: "Əbdürrəhim bəy, həyat təcrübəsindən başqa, bir də çox dərin və çox müxtəlif bilik sahibi idi. Onun söhbətlərindən doymaq olmazdı. Hər nədən danışsaydı, Əbdürrəhim bəy hər dəfə dinləyənə müxtəlif sahələrdən dəqiq və maraqlı məlumat verirdi. Onun danışıq tərzi də çox cəlbedici idi".

Ə.Haqverdiyevin şəxsi arxivi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda şəxsi fondlar şöbəsində mühafizə edilir. Arxivdə oxuculara məlum olan məşhur əsərlərindən başqa "Zavallı komsomool, yaxud gənc kommunistin sərgüzəşti", "Zübeydənin röyası, yaxud mövhumat qurbanı" və s. pyeslərinin, eləcə də nəsr əsərlərinin və məqalələrinin əlyazmaları, Haqverdiyevin məktubları və bir çox tanınmış adamların Haqverdiyevə yazdığı məktublar vardır.

Bu il Ə.Haqverdiyevin 150 illik yubileyinin YUNESKO xətti ilə qeyd olunması qərara alınmışdır. Azərbaycan Prezidentinin sərəncamına əsasən bir çox elm və təhsil ocaqlarında yazıçının yubiley tədbirlərinin keçirilməsi və onunla bağlı kitabların çap olunması nəzərdə tutulmuşdur. Əbdürrəhimbəy Haqverdiyev təkcə müasirlərinin deyil, bugünkü ədəbiyyatşünasların da diqqət mərkəzindədir.

**Ədəbiyyat:**

1. Məmmədova Mehri. Əbdürrəhim bəy Haqverdiyevin arxivinin izahlı təsviri. "Elm və təhsil" nəşriyyatı, 2012.
2. "Ədəbiyyat qəzeti", 1936,21 dekabr.
3. "İnqilab və mədəniyyət" jurnalı, 1936, N-11-12.
4. "Kommunist" qəzeti. 1945, 16 may.
5. "Ədəbiyyat qəzeti", 1945, 20 may.
6. "Kommunist" qəzeti, 1948, 11 dekabr.
7. "Ədəbiyyat və incəsənət" qəzeti, 1960, 17 dekabr.
8. "Ədəbiyyat və incəsənət" qəzeti, 1970, 20 dekabr.
9. "Bakı" qəzeti, 1970, 24 dekabr.
10. "Azərbaycan gəncləri" qəzeti, 1970, 24 dekabr.
11. "Kommunist" qəzeti, 1970, 25 dekabr.
12. "Ədəbiyyat və incəsənət" qəzeti, 1970, 26 dekabr.

***Гадиева Сонаханым***

## СОВРЕМЕННИКИ ОБ АБДУРРАГИМ БЕКЕ АХВЕРДИЕВЕ

*(Абдуррагим бек Ахвердиев- 150)*

**Резюме**

Абдуррагим бек Ахвердиев, внесший беспрецедентный вклад в развитие азербайджанской культуры, оставил очень богатое литературное наследие. Его пьесы, рассказы, статьи и переведенные произведения являются бесценными примерами в обогащении нашей литературы. Много исследований было сделано по произведениям Ахвердиева. Статьи, написанные современниками, более интересны в этом отношении.
**Ключевые слова:** *Ахвердиев, пьеса, статья, рассказ, исследование*

***Hadiyeva Sonakhanim***

## CONTEMPORARIES ABOUT ABDURRAHIMBEY HAGVERDIYEV

*(Abdurrahimbey Hagverdiyev- 150)*

**Summary**

Abdurrahimbey Hagverdiyev, who made unparalleled contributions to the development of Azerbaijan culture, left a very rich literary heritage. His plays, stories, articles and translated works are invaluable examples in the enrichment of our literature. A lot of research has been one on Hagverdiyev's works. Articles written by contemporaries are more interesting in this regard.
**Key words:** *Hagverdiyev, play, article, story, research*

Redaksiyaya daxil olma tarixi: 15.07.2020
Çapa qəbul olunma tarixi: 21.07.2020

Filologiya üzrə elmlər doktoru **Nailə Səmədova**
tərəfindən çapa tövsiyə olunmuşdur.